# ZİYALI MƏNZƏRƏSİ

**Oruc QULIYEV**
*Xətai rayon MKS-nin direktoru,*
*Milli Elmlər Akademiyasının dissertantı*

Kitabxana işi haqqında söhbət açmaq, söz demək həmişə bizdə qürur hissi yaradır, keçmiş irsimizin ən gözəl nümunələrini, abidələrini yada salır, xatırladır. Bu sahədə BDU-nun kitabxanaşünaslıq kafedrasının müdiri, görkəmli alim, Əməkdar elm xadimi, professor A.Xələfovun fəaliyyəti xüsusilə diqqəti cəlb edir. Belə ki, kitabxana işinin elə bir sahəsi yoxdur ki, onun haqqında öz dəyərli fikrlərini, mülahizələrini, elmi tövsiyələri söyləməsin, dərin hərtərəfli ümumiləşdirmələr aparmasın, fakültədə kecirilən fənlərin yeniləşdirmə perspektivlərini zənginləşdirməsin, elmi potensialını, tədris keyfiyyətini təkmilləşdirməsin. Bu işgüzar şəxsiyyətin fəaliyyətini dəyərləndirmək, əsl qiymətini vermək hər bir kitabxanaşünasın, kitabxanaçının, mədəni irsimizi sevən, onu qoruyan hər bir ziyalının mühüm vəzifəsidir.

O, hələ qədim dövrlərdən başlayaraq son illərə qədər kitabxana işinin geniş inkişaf xarakteristikasını vermiş konkret nümunələr, faktlar əsasında təhlil etmiş maraqlı elmi nəticələrə gəlmişdir. Belə bir tarixi dövrdə kitabxana işinin ponoramasını yaratmaq, inkişaf istiqamətlərini ümumiləşdirmək, dövrün ictimai, siyasi, mədəni hadisələri ilə əlaqəli işıqlandırmaq tədqiqatçıdan böyük zəmanət, əmək, işgüzarlıq, müntəzəm yaradıçılıq işi və elmi axtarışlar tələb edir.

A.Xələfov kitab sərvətinin cəmiyyətin mədəni həyatında tutduğu mövqeyi təhlil edir, yaranmış hər bir fondun zəruriliyini, əhəmiyyətini qeyd edir, bu sahədə çalışan kitabsevərlərin əsl zəhmətini qiymətləndirir. O, insanları kitab sərvətinin, mədəniyyətinin yaradıcısı hesab etməklə yanaşı fondların formalaşmasını cəmiyyətin inkişaf prosesinin mühüm tərkib hissəsi kimi qiymətləndirmişdir. Belə ki, kitabxana işi yalnız cəmiyyətin mövcudluğu prosesində yaranır, inkişaf edir və insanlarda yüksək mənəvi keyfiyyətlər, əxlaqi davranışlar, elmə, biliyə, mədəniyyətə yiyələnmək vərdişləri yaradır. Məhz bu baxımdan görkəmli alim A.Xələfov tərəfindən respublikamızın kitabxanalarında toplanan milyon nüsxələrlə kitab sərvəti haqqında geniş təsəvvür yaratmaq, zəngin mədəni irsimizi oxucuların nəzərinə çatdırmaq ən mühüm nailiyyətlərdən biri hesab edilməlidir. Bu sahədə A.Xələfovun zəngin irsi, dəyərli mülahizələri, elmi ümumiləşdirmələri bi sıra qiymətli əsərlərində geniş əks olunmuşdur.

Yüksək mənəvi keyfiyyətləri olan insan kimi, elmi və ictimai xadim kimi Abuzər müəllim haqqında çox danışmaq olar. Lakin bir fikri vurğulamaq

istərdik ki, kitabxanaçılıq-informasiya fakültəsinin, eləcə də respublikanın böyük kitabxanaçılar ordusunun bütün ağırlığı, dərd-səri bu nəhəng şəxsiyyətin çiyinləri üstündə dayanır. Biz yalnız və yalnız bu çiyinlərin üstündə varlığımızı qoruyub saxlaya, gələcəyimizi aydın görə və pərvazlanıb aydın səmaya uça bilərik. Çünki bu kamil şəxsiyyət 80 illik ömrünün 60 ilini kitabxanaçılıq fəaliyyətinin bütün sahələrinin formalaşmasında, sürətlə inkişaf edib indiki yetkin səviyyəyə çatmasında, nəinki respublikada, həm də MDB məkanında baçarıqlı mütəxəssislərin, istedadlı alimlərin və bir çox nəsillərin yetişməsində əvəzsiz tövhələr vermişdir. O, bütün həyatı boyu özü üçün yaşamamışdır. Kimliyindən aslı olmayaraq o, insanların şüurunda, ağlında və ürəyində insanlıq və kamillik çırağı yandırmışdır.

A.Xələfovun 60 illik elmi-yaradıcılıq yolu elm, mədəniyyət və kitabxana ictimaiyyətinin rəğbətini qazanan görkəmli alim-pedaqoqun keçdiyi şərəfli yoldur. Azərbaycanda kitab, kitabxana işi sahəsində nəzəri fikrin müasir nailiyyətləri, bütün mühüm və əlamətdar hadisələr onun adı ilə bağlıdır.